UOT 025.5

**Günel Bağırova-Hüseynova**
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, dissertant*
gunel.bagirbeyli@mail.ru

## HEYDƏR ƏLİYEV İRSİ BİBLİOQRAFİK İNFORMASİYA MƏNBƏLƏRİNDƏ

**Açar sözlər:** *Heydər Əliyev, müstəqillik, irs, informasiya resursları, informasiya təminatı, biblioqrafiya.*
**Ключевые слова :** *Гейдар Алиев, независимость, наследие, информаци-онные ресурсы, информационное обеспечение, библиография.*
**Key words**: *Heydar Aliyev, independence, heritage, information resources, information support, bibliography.*

Heydər Əliyev irsinin təbliği məqsədilə kitabxanalar Heydər Əliyev irsinin biblioqrafik informasiya nəşrləri yaradır.

Heydər Əliyevin bütün yaradıcılığını və ona həsr edilmiş əsərləri, eyni zamanda onun çıxışlarını əks etdirən sənədlərdən biri "Müstəqilliyimiz əbədidir" çoxcildliyidir. Bu kitablar ümummilli lider Heydər Əliyevin irsini öyrənmək baxımından olduqca mühüm əhəmiyyət kəsb edir. "Müstəqilliyimiz əbədidir" çoxcildliyi 1997-ci ildən nəşr olunmağa başlanmışdır. Hal-hazırda 46 cildi nəşr edilmişdir. Respublika ictimaiyyətinin, müəllimlərin, dövlət qulluqçularının və tədqiqat aparan bütün aparıcı mütəxəssislərin bu kitaba olan böyük tələbatı və marağı nəzərə alınaraq Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə M.F.Axundov adına Milli Kitabxana tərəfindən çoxcildliyin I-IX cildlərinin (qeydlər, mövzu şəxsi və coğrafi adlar gostəricisi) köməkçi göstəricisi tərtib edilmişdir.(2,.s. 4)

Köməkçi göstəricidə çoxcildliyin mətnində verilən qeydlər, şəxsi və coğrafi adlar əlifba sırası ilə qruplaşdırılmışdır. Çoxcildliyin müvafiq cildlərindəki materiallar sistemli formada bir yerə toplanaraq göstəricidə öz əksini tapmışdır. Göstərici "Qeydlər", "Mövzu", "Şəxsi adlar", "Coğrafi adlar" bölmələrindən ibarətdir. "Mövzu" göstəricisi bölməsində adından da göründüyü kimi, müəyyən mövzularla əlaqədar olan və çoxcildlikdə yer almış materiallar haqqında məlumat verilmişdir.

Ümumilikdə xarici ölkələrlə Azərbaycan münasibətlərini izləmək baxımından "Müstəqilliyimiz əbədidir" çoxcildliyinin I-X cildlərinin köməkçi göstəricisində yer alan "Coğrafi adlar" göstəricisi də böyük əhəmiyyətə malikdir. Burada təkcə ümummilli lider Heydər Əliyevin dünyanın bir sıra ölkələri ilə əlaqədar deyil, eyni zamanda Azərbaycanın bir-birindən gözəl guşələri, rayonları, kəndlərində olan çıxışları, həmçinin onlar haqqında olan düşüncələri əks olunmuşdur.

Çoxcildlikdən istifadəni asanlaşdırmaq məqsədi ilə Mədəniyyət və Turizm Nazirliyinin və M.F.Axundov adına Milli kitabxananın birgə layihəsi olan "Müstəqilliyimiz əbədidir" çoxcildliyinin X-XXVIII cildlərinin köməkçi göstəricisi

2010-cu ildə çapdan çıxmışdır. Göstərici 512 səhifədən ibarətdir və "Müstəqilliyimiz əbədidir" çoxcildliyinin X və XXVIII cildlərindən oxucuların istifadəsini asanlaşdırmaq baxımından olduqca böyük əhəmiyyət kəsb edir. Bu göstəricidə də digərində olduğu kimi materiallar "Qeydlər", "Şəxsi" və "Coğrafi" adlar bölməsində əlifba sırası ilə düzülmüşdür. "Qeydlər" bölməsində digər bölmələrdə ("Coğrafi adlar", "Şəxsi adlar") verilən məlumatların izahlı açıqlaması verilir."(3,s.9)

Milli Kitabxana "Müstəqilliyimiz əbədidir" çoxcildliyinə verilmiş köməkçi göstəricilərin yaradılması istiqamətində fəaliyyətini davam etdirərək ulu öndərin 90 illik yubileyi münasibətilə coxcildliyin XXIX-XXXXII cildlərinin də köməkçi göstəricisini (qeydlər, şəxsi adlar və coğrafi adlar) hazırlamışdır.

Göstəricinin "Qeydlər" bölməsində Heydər Əliyevin görkəmli şəxslər haqqında fikirləri öz əksini tapmışdır. (4, s. 4-8)

Göstəricinin üstün cəhətlərindən biri də ensiklopedik məlumatları özündə əks etdirməsidir. Məs. Elmira Şahtaxtinskaya. Elmira Həbibulla qızı Şahtaxtinskaya (1930-1996) – rəssam. Azərbaycan Respublikasının Xalq rəssamı və əməkdar incəsənət xadimi. H.B.Şahtaxtinskinin qızıdır. Plakat və dəzgah rəsmlərinin müəllifidir. 70- ci illərdə çəkdiyi "Azərbaycan qədim mədəniyyət diyarıdır" plakat silsiləsində Azərbaycanın orta əsrlərdə yaşayıb yaratmış elm və mədəniyyət xadimlərinin (N.Tusi, M.Gəncəvi, İ.Nəsimi, M.Fuzuli, Ə. Naxcıvani, S.Məhəmməd v.b.), 70-80-ci illərdə isə muasir sənətkarların (U.Hacıbəyov, H.Cavid, S.Vurğun, S.Bəhlulzadə, Q.Qarayev, F.Əmirov və b.) portretlər qalereyasını yaratmışdır. (C.31-358)

Bölmə daxilində informasiya əlifba prinsipi üzrə qruplaşdırılmışdır.

Ulu öndər Heydər Əliyevə həsr olunmuş "Müstəqilliyimiz əbədidir" çoxcildliyinə verilmiş köməkçi göstəricilər Heydər Əliyev irsini tədqiq edən mütəxəssislər üçün, eyni zamanda onun irsini öyrənən yeni nəsil üçün böyük əhəmiyyətə malikdir, bütövlükdə cəmiyyətin biblioqrafik təminatında əvəzedilməz biblioqrafik ehtiyatdır.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanası ümummilli lider, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin zəngin irsini əks etdirən iki cilddən ibarət "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyinin elmi biblioqrafik göstəricisini hazırlayaraq "Şərq-Qərb" nəşriyyatında çap etdirmişdir.

Biblioqrafik göstəricinin birinci cildində "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyində əks olunmuş siyasi, ictimai və sosial əhəmiyyətə malik materiallar "Dövlətçilik, müstəqillik və demokratiya", "Milli təhlükəsizlik", "Ordu quruculuğu", "Ermənistan- Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi", "İqtisadiyyat", "Neft strategiyası", "Aqrar siyasət", "Elm və təhsil", "Mədəniyyət, ədəbiyyat, dil, incəsənət", "Bədən tərbiyəsi və idman", "Tibb və səhiyyə", "Milli mənəvi dəyərlər", "Qadın və ailə", "Uşaq və gənclər" bölmələrində, ikinci cildində isə "Dünya azərbaycanlıları", "Dövlətlərarası münasibətlər, beynəlxalq təşkilatlar", "Tarix və tarixi hadisələr", "Azərbaycanın şəhərləri və bölgələri" bölmələrində təqdim edilir.

Ən yaxın və şanlı tariximizin araşdırılması, Heydər Əliyev dühasının Azərbaycan tarixindəki təkrarsız xidmətlərini öyrənmək üçün nəzərdə tutulan

biblioqrafik göstəricidə, eyni zamanda, Ümummilli Liderin səhhəti ilə bağlı mütəmadi Azərbaycan ictimaiyyətini məlumatlandıran Azərbaycan Prezidentinin Mətbuat Xidmətinin məlumatlarına da xüsusi bölmədə yer verilmişdir. (10, s.2),

Külliyyatın buraxılışına məsul Azərbaycan Respublikası Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin sonuncu cilddə əks olunan "Azərbaycanda müstəqil dövlətçiliyi yaradan və yaşadan – ümummilli lider Heydər Əliyevin qadir siyasətidir" və biblioqrafik göstəricinin hazırlanması layihəsinin rəhbəri, akademik Akif Əlizadənin "XX əsrin qüdrətli siyasi lideri" məqalələri də biblioqrafik göstəricidə xüsusi yer tutur. AMEA rəyasət heyətinin qərarı ilə çap olunan biblioqrafik göstəricinin elmi redaktoru, akademik İsa Həbibbəyli, tərtibçi-müəllifi filologiya üzrə elmlər doktoru Aybəniz Əliyeva-Kəngərlidir. (11, s.2.)

46 cildlik külliyyatda öz əksini tapmış çıxış və nitqlər, bəyanatlar, məktub və müsahibələr analitik təsvir olunaraq verilmiş və müvafiq bölmələrdə verilmişdir. Xronoloji və sistematik struktur informasiyaların dolğunluğu, informasiya-xtarış aparatı üzrə nəşrin mövcudluğu bəşrin informativliyini və istifadə keyfiyyətini artırır. Göstəricidə "Müstəqilliyimi əbədidir" çoxcildliyinin ayrı-ayrılıqda bütün cildlərinin xülasəsi verilmişdir ki, bu da öz növbəsində toplunun annotativ-referativ izlənməsinə də imkan verir. (5, s.68)

"Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyinin elmi biblioqrafik göstəricisinin birinci cildi Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "Azərbaycanda müstəqil dövlətçiliyi yaradan və yaşadan- ümummilli lider Heydər Əliyevin qadir siyasətidir" adlı giriş məqaləsi ilə başlayır.

Göstəricinin bu cildinin "Dövlətçilik, müstəqillik, demokratiya" adlı birinci bölməsində 140 adda, "Milli təhlükəsizlik" adlanan ikinci bölməsində 6 adda, "Ordu quruculuğu" adlanan üçüncü bölməsində 70 adda, "Ermənistan, Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi" adlanan dördüncü bölmədə 97 adda, "İqtisadiyyat" adlanan beşinci bölmədə 256 adda, "Neft srategiyası" adlı altıncı bölmədə 208 adda, "Aqrar siyasət" adlı yeddinci bölmədə 12 adda, "Elm və təhsil" adlanan bölmədə 95 adda, "Mədəniyyət, ədəbiyyat, dil və incəsənət" adlı bölmədə 392 adda, "Tibb və səhiyyə" adlı bölmədə 21 adda, "Bədən tərbiyəsi və idman" adlanan bölmədə 33 adda, "Milli mənəvi dəyərlər" adlı bölmədə 133 adda, "Qadın və ailə" adlı bölmədə 12 adda, "Uşaq və gənclər" adlı bölmədə 137 adda ədəbiyyat olmaqla, ümumilikdə 1534 adda ədəbiyyatın analitik-biblioqrafik təsviri verilmişdir.

Göstəricidən istifadəni asanlaşdırmaq məqsədilə göstəriciyə "Adlar göstəricisi" və "Coğrafi göstərici" olmaqla "İnformasiya axtarış aparatı" əlavə edilmişdir.

"Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyinin elmi biblioqrafik göstəricisinin ikinci cildinin "Dünya Azərbaycanlıları" adlı birinci bölməsində Heydər Əliyevin dünya azərbaycanlıları ilə görüşlərində söylədiyi nitqləri, çıxışları və müsahibələrini əks etdirən 31 adda sənədin biblioqrafik siyahısı verilmişdir. "Dövlətlərarası münasibətlər, beynəlxalq təşkilatlar" adlı ikinci bölmədə "Azərbaycanla həmsərhəd ölkələr" adlı altbölmədə Azərbaycan Türkiyə əlaqələrinə dair 277 adda, Azərbaycan Rusiya Federasiyası əlaqələrinə dair 190 adda,

Azərbaycan Gürcüstan əlaqələrinə dair 77 adda, Azərbaycan İran əlaqələrinə dair 61 adda, Azərbaycan Avropa ölkələri əlaqələrinə dair 526 adda, Azərbaycan Asiya ölkələri əlaqələrinə dair 372 adda, Azərbaycan Şimali Amerika Ölkələrinin əlaqələrinə dair 211 adda, Azərbaycan Cənubi Amerika ölkələri əlaqələrinə dair 31 adda, Azərbaycan Avstraliya və Okeaniya ölkələri əlaqələrinə dair 11 adda, Azərbaycan Afrika ölkələri əlaqələrinə dair 106 adda, Beynəlxalq təşkilatlarla əlaqələrə dair 254 adda ədəbiyyat olmaqla, ümumilikdə 2116 adda sənədin biblioqrafik siyahısı verilmişdir.

"Tarix və tarixi hadisələr" adlı üçüncü bölmədə Ulu öndərin Xocalı soyqırımı, 20 yanvar faciəsi, 31 Mart Azərbaycan soyqırımı günü ilə bağlı keçirilən tədbirlərdə çıxışları, dövlət müstəqiliyi günü, görkəmli şəxsiyyətlərin yubiley tədbirlərində, beynəlxalq elmi konfranslarda, tarixi memarlıq abidələrinin açılışı zamanı nitqləri, xarici ölkə prezidentləri və ayrı-ayrı şəxslərlər görüşlərindəki söhbətləri, tarixi günlərdə Azərbaycan xalqına müraciətləri olmaqla 57 adda sənədin biblioqrafik təsviri öz əksini tapmışdır.

"Azərbaycan şəhərləri və bölgələri" adlı dördüncü bölmədə 141 adda sənədin biblioqrafik təsviri ilə yanaşı, Azərbaycanın ayrı-ayrı şəhərlərinə Heydər Əliyevin ziyarətini əks etdirən fotolar da daxildir. "Azərbaycan Respublikası prezidentinin mətbuat xidmətinin məlumatları" adlanan beşinci bölmədə 8 adda sənədin biblioqrafik təsviri verilmişdir.

Göstəricidən istifadəni asanlaşdırmaq məqsədilə göstəriciyə "Adlar göstəricisi" və "Coğrafi göstərici" olmaqla "İnformasiya axtarış aparatı" əlavə edilmişdir. (6)

"XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyətlərindən biri ölkədə elmin, təhsilin sürətlə inkişaf etməsidir" ümummilli liderin müdrik kəlamı ilə başlayan "Heydər Əliyev və Azərbaycan elmi" adlı çap olunmuş biblioqrafik göstərici bu fəaliyyətin dəyərli nümunəsidir. (1, s.138)

Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən hazırlanmış biblioqrafik vəsait Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin qərarı ilə 2010-cu ildə "Şərq-Qərb" mətbəəsində nəşr olunmuş və ulu öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişinin 40 illiyinə həsr olunmuşdur. Biblioqrafik göstərici akademik Mahmud Kərimovun ümumi rəhbərliyi ilə çapa hazırlanmışdır. Biblioqrafik nəşr öz əhatəliliyi, informasiyalılığı baxımından seçilir.

Biblioqrafik göstəricinin məqsədi Azərbaycan elminin inkişafı sahəsindəki fəaliyyətinin təbliği, Azərbaycanın və dünyanın elm xadimlərinin Heydər Əliyev irsinə verdiyi qiymət, Azərbaycan elminin beynəlxalq əlaqələri haqqında informasiya tələbatçılarına məlumat verməkdir. Biblioqrafik göstərici Heydər Əliyevin zəngin irsini tədqiq edən mütəxəssislər üçün nəzərdə tutulmuşdur.

Biblioqrafik göstəricinin tərtibçi-müəllifi filologiya elmləri doktoru Aybəniz Əliyeva-Kəngərli, elmi redaktoru Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Abuzər Xələfovdur.

Biblioqrafik göstəricidə 1522 adda mənbənin biblioqrafik təsviri verilmişdir. Vəsaitin həcmi 424 səhifədir. Biblioqrafik göstərici haqqında geniş məlumatı, biblioqrafik göstəriciyə daxil olan "Tərtibçi-müəllifdən" başlıqlı yazıdan əldə etmək mümkündür. Vəsait 6 bölmə və 16 yarımbölmədən ibarətdir. "Heydər Əliyev və

Azərbaycan elminin inkişaf strategiyası" sərlövhəli yazının müəllifi akademik Mahmud Kərimovdur. (7, s.45-68).

Heydər Əliyev irsinin biblioqrafik informasiya təminatı baxımından Azərbaycan Respublikası Prezident İşlər İdarəsi Prezident Kitabxanası tərəfindən yaradılmış "Azərbaycanı dünyaya tanıdan lider" adlı biblioqrafik göstərici mühüm əhəmiyyət kəsb edir. Bu göstəricidə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xarici siyasət fəaliyyəti haqqında kitabxananın fondunda olan kitabların biblioqrafik təsvirləri dillər üzrə əlifba sırası ilə verilmişdir. Burada, həmçinin Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti olduğu dövrdə (1993-2003) xarici ölkələrə etdiyi səfərlərin xronologiyası da yer almışdır. Göstərici "Xarici ölkələrə səfərlərin xronikası (1993-2003)", "Əsərləri" və "Haqqında" bölmələrindən ibarətdir.

Göstəricinin "Xarici ölkələrə səfərlərin xronikası (1993-2003)" adlı birinci bölmədə Ulu Öndərin 1993-2003-cü illərdə fəaliyyətinin xronologiyası verilmişdir. "Əsərləri" adlanan bölmədə ulu öndərin müəllifi olduğu azərbaycan dilində 55 adda, rus dilində 2 adda və xarici dillər 1 adda olmaqla, ümumilikdə 58 adda ədəbiyyatın biblioqrafik siyahısı, "Haqqında" adlanan üçüncü bölməsində ümummilli lider haqqında azərbaycan dilində 74 adda, rus dilində 13 adda, xarici dillərdə 17 adda olmaqla, ümumilikdə 104 adda ədəbiyyatın biblioqrafik siyahısı verilmişdir.

Azərbaycan Respublikasının memarı və qurucusu olan Azərbaycan xalqının Ümummilli lideri cənab Heydər Əliyevin yeni nəslin tərbiyəsində göstərdiyi misilsiz xidmətlərini və atalıq qayğısını yaddaşlarda daimi yaşatmaq, Azərbaycan gəncliyinə verdiyi dəyərli tövsiyələrini təbliğ etməkdə kitabın rolu çox böyükdür. Nəşr olunmuş kitablardan biri və demək olar ki, birincisi – müasir Azərbaycan Respublikasının memarı və qurucusu olan Ümummilli Liderimiz cənab Heydər Əlirza oğlu Əliyevin 80 illik yubileyi münasibətilə yüksək poliqrafik səviyyədə çap olunmuş biblioqrafik məlumat kitabıdır. (9, s. 67) Bakı Dövlət Universiteti Elmi Şurasının qərarı ilə ilk dəfə olaraq "Dünyanın görkəmli dövlət xadimləri" seriyasından olan bu kitab müstəqil Azərbaycan dövlətçiliyinin inkişafında və möhkəmləndirilməsində misilsiz rolu olan Heydər Əliyev irsinin biblioqrafiyalaşdırılması sahəsində atılan ilk addımdır. 434 səhifləik Azərbaycan dilində, 446 səhifəlik rus dilində, 455 səhifəlik ingilis dilində çap olunmuş bu sanballı biblioqrafik əsər (8) BDU-nun rektoru, AMEA-nın müxbir üzvü, professor Abel Məhərrəmovun rəhbərliyi və ümumi redaktəsi ilə nəşr edilmişdir. Kitabın tərtibçi-müəllifləri əməkdar elm xadimi, BDU-nun kitabxanaşünaslıq kafedrasının müdiri, professor Abuzər Xələfov və biblioqrafiyaşünaslıq kafedrasının müəllimi, bu sətirlərin müəllifi Solmaz Sadıqovadır.

Ümummilli lider haqqında tədqiqata cəlb edilən biblioqrafik informasiya mənbələri bütün oxucuların, xüsusən də gənclərin stolüstü kitabına çevriləcək və bundan sonra neçə-neçə nəsillər Heydər Əliyevin zəngin irsindən bəhrələnəcəkdir.

**Ədəbiyyat :**

1. Əliyev Z., Sadıqova S. Sosial-siyasi elmlərin biblioqrafik informasiya təminatında "Heydər Əliyev və Azərbaycan elmi" adlı biblioqrafik göstərici

mühüm mənbədir // Kitabxanaşünaslıq və biblioqrafiya. - 2010. - №2. - S.138-143.
2. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir : (Çoxcildliyin 1-9 cildlərinin köməkçi aparatı). - Bakı, 2008. - 339 s.
3. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Coxcildliyin 10-28 cildlərinin köməkçi göstəricisi. C.13. (Qeydlər, şəxsi və coğrafi adlar göstəriciləri) / M.F.Axundov adına Azərbaycan Milli kitabxanası. - Bakı, 2010. – 512 s.
4. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Çoxcildliyin 29-42 cildlərinin köməkçi göstəricisi: (Qeydlər, şəxsi və coğrafi adlar göstəricisi) /M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası. - Bakı, 2013. - 448 s.
5. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir çoxcildliyinin elmi-biblioqrafik göstəricisi. 2 cilddə. C.1. – Bakı : "Şərq-Qərb" nəşriyyat evi, 2013. - 632 s.
6. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir çoxcildliyinin elmi-biblioqrafik göstəricisi. 2 cilddə. C.2. - Bakı, "Şərq-Qərb" nəşriyyat evi, 2013. - 752 s.
7. Heydər Əliyev və Azərbaycan elmi : biblioqrafik göstərici / tərt. muəl.: A.Əliyeva-Kəngərli ; elmi red.: A.Xələfov. – B.: Şərq-Qərb, 2010. – 424 s.
8. Heydər Əliyev: Biblioqrafik məlumat kitabı / tərt. ed.: A.A.Xələfov, S.A.Sadıqova ; red. və ön sözün müəllifi A.M.Məhərrəmov. – B.: Bakı Universiteti nəşriyyatı, 2003. – 434 s.
9. Sadıqova S. Gənclərin milli ruhda tərbiyə olunmasında "Heydər Əliyev: biblioqrafik məlumat kitabı"nın əhəmiyyəti // Kitabxanaşünaslıq və biblioqrafiya . - Bakı, 2006. №1. - S. 67-74.
10. Ümummilli lider Heydər Əliyevin zəngin irsini əks etdirən iki cilddən ibarət "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyinin elmi-biblioqrafik göstəricisi çap edilmişdir // Təbib. - 2014, - 31 yanvar. - S.2 ; Azərbaycan. - 2014. - 23 yanvar. - S.2.

***Гюнель Багирова-Гусейнова***

## НАСЛЕДИЕ ГЕЙДАРА АЛИЕВА В БИБЛИОГРАФИЧЕСКИХ ИНФОРМАЦИОННЫХ РЕСУРСАХ

### Резюме

В статье освещаюся библиографические и информационные источники, посвященные общенациональному лидеру Гейдару Алиеву, на основе которых проводится изучение его наследия, в частности «Гейдар Алиев. Наша независимость вечна: вспомогательный аппарат 1-9 томов многотомника», «Гейдар Алиев. Наша независимость вечна: вспомогательный аппарат 10-38 томов", "Гейдар Алиев. Наша независимость вечна: вспомогательный аппарат 29-42 томов», «Гейдар Алиев. Библиографический указатель «Гейдар Алиев и азербайджанская наука», «Гейдар Алиев: справочно-библиографическая книга» и электронный библиографический указатель «Лидер, прославивший Азербайджан в мире».

***Gunel Bagirova-Guseynova***

# HERİTAGE OF HEYDAR ALİYEV İN BİBLİOGRAPHİC İNFORMATİON RESOURCES

**Summary**

The study analyzed bibliographic and informational sources which are important for the study of Heydar Aliyev's heritage. The study included "Heydar Aliyev. Our Independence is eternal: Auxiliary apparatus I-IX volumes of multitude", "Heydar Aliyev. Our independence is eternal. Multiplier X-XXVIII volumes", "Heydar Aliyev. Our independence is eternal. Multiple Indicators of the XXIX-XXXXII volumes", "Heydar Aliyev. Bibliographical index "Heydar Aliyev and Azerbaijan science", "Heydar Aliyev: bibliographic information book", and "The leader who has glorified Azerbaijan for the whole world" electronic bibliographic index.